# Azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işləri dövlətimizin gücünü və qüdrətini göstərir



***Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ölkəmizdə davamlı olaraq nəhəng infrastruktur layihələri icra olunur, yeni yollar çəkilir, müasir məktəb binaları, səhiyyə ocaqları və digər zəruri obyektlər tikilir. Bu irimiqyaslı işlərin davamı il yarımdır ki, işğaldan azad edilmiş Şərqi Zəngəzurda və Qarabağda uğurla həyata keçirilir.***

Ermənі vandallarının 30 il müddətində talançılıqla hər şeyi məhv etdikləri, hətta ekologiyaya ağır zərbələr vurduqları həmin ərazilərdə işğala son qoyulduğu ilk günlərdən kommunikasiyalar yenidən qurulur, yeni şəhərlər, qəsəbələr, kəndlər salınır. Təbii ki, bu proses çox böyük vəsait, güc və zaman tələb edir. Buna baxmayaraq, dövlət başçısının dünyaya bəyan etdiyi kimi, Azərbaycan bu işlərin öhdəsindən təkbaşına gəlir. Bu gün azad edilmiş ərazilərdə aparılan tarixi bərpa-quruculuq işləri dövlətimizin gücünü və qüdrətini göstərir. İcra olunan işlərdə dünyanın tikinti sahəsində tanınmış, təcrübəli şirkətləri də fəal iştirak edir.

Şərqi Zəngəzur və Qarabağda bütün işlər sistemli şəkildə, planauyğun olaraq yüksək keyfiyyətlə aparılır. Bütün proses dövlətimizin başçısı İlham Əliyevin şəxsi nəzarəti altındadır. Möhtərəm Prezident təməlqoyma mərasimlərində iştirak edir, aparılan işlərlə yerindəcə tanış olur, tamamlanmış obyektlərin açılışlarını edir və bu proses mütəmadi xarakter alıb. Ölkə rəhbərinin regiona hər səfərində biz bunun şahidi oluruq.

Mayın 26-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva növbəti dəfə Füzuli, Cəbrayıl və Zəngilan rayonlarına səfər etdilər. Dövlət başçıları Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun tikintisi ilə tanış oldular, Horadiz-Ağbənd dəmir yolu xəttinin Soltanlı stansiyasının və "Azərenerji" ASC-nin 330/110 kV-luq "Cəbrayıl" enerji qovşağının təməlqoyma mərasimində iştirak etdilər. Onlar Zəngilan Beynəlxalq Hava Limanının və "Paşa Holding" MMC-nin dəstəyi ilə Heydər Əliyev Fondu tərəfindən inşa olunan Zəngilan məscidinin tikinti işləri ilə də tanış oldular. Səfər zamanı Zəngilanda İşğal və Zəfər muzeyləri kompleksinin təməli də qoyuldu. Bütün bunlar onu göstərir ki, həmin ərazilərdə yenidənqurma və bərpa işləri sürətlə davam etdirilir, əsas hədəf sakinlərin ən tez zamanda öz yurdlarına qayıtmasıdır.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun ölkəmizdə və dünyada humanitar sahədə gördüyü işlər göz qabağındadır. Bu qurumun mədəniyyətlə, incəsənətlə bağlı layihələri Azərbaycanın mənəvi, tarixi, mədəni irsinin qorunması işinə tarixi töhfədir. Fond fəaliyyət göstərdiyi müddətdə onlarca dini abidəni, məscid və ziyarətgahı bərpa edərək xalqımızın ixtiyarına verib. Ənənəsinə sadiq qalan fond işğaldan azad edilmiş ərazilərdə də dini abidələrimizin, məscidlərimizin restavrasiyası işini uğurla davam etdirir. Bunlardan biri Zəngilan məscididir ki, orada da fasiləsiz olaraq iş aparılır.

Zəngilanda təməli qoyulan İşğal Muzeyi ölkəmizin ərazisində 30 il müddətində baş vermiş vandallıq əməllərini nümayiş etdirəcək. Erməni işğalçılarının Qarabağda törətmiş olduğu dağıntı və vəhşiliklərin miqyasını və mənzərəsini indiki və gələcək nəsillərin bilməsi çox vacibdir. Muzeyin gələcək ziyarətçilərinə bütün bunlar əyani şəkildə məlum olacaq.

Zəfər Muzeyi isə xalqımızın, yenilməz ordumuzun şərəflə icra etdiyi tarixi missiyanın əzəmətini, düşmən üzərində qazanılan qələbənin önəmini gələcəyə daşıyacaq, yeni nəsillərin daha vətənpərvər ruhda tərbiyələnməsində, dövlətə sədaqətli olmasında əhəmiyyətli rol oynayacaq.

***Səttar MÖHBALIYEV,***
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı***

Xalq qəzeti.- 2022.- 3 iyun.- S.5.